**Təsdiq edirəm:**
Biznes mühiti və beynəlxalq
reytinqlər üzrə Komissiyanın sədri,
Azərbaycan Respublikası Baş nazirinin
birinci müavini Yaqub Eyyubov

_____________

28.04.2022-ci il

## Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın "Əmək bazarı" işçi qrupunun 2022-ci il üçün Fəaliyyət Planı

| Sıra №-si | İndikatorlar | Mövcud vəziyyət (son hesabat üzrə) | Metodologiya (hesabatlar üzrə) | Görüləcək tədbirlər | Son icra müddəti | İcra orqanları | Məsul şəxslər |
|---|---|---|---|---|---|---|---|
| | | | | ***Qlobal Rəqabətlilik Hesabatı*** | | | |
| 1. | **8.02 İşəgötürmə və işdən azad etmə praktikası** | 4-cü yer, 72,5 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda "Sizin ölkənizdə qanunvericilik işçilərin işə qəbul edilməsi və işdən azad olunmasının çevikliyini nə dərəcə təmin edir?" sualına cavab [1-ümumiyyətlə təmin etmir; 7- yüksək səviyyədə təmin edir] | İşəgötürən tərəfindən müəyyən səbəblərdən əmək müqaviləsinə xitam verilməsi mümkün olmadıqda və nəticədə şəxsin digər iş yerində əmək müqaviləsi bağlaması mümkünsüz olduqda, həmin müqavilənin qüvvədən salınması ilə bağlı Azərbaycan Respublikasının Əmək Məcəlləsinə dəyişikliklərin edilməsinə dair qanunvericilik layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi. | 30.06.2022 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi | Anar Kərimov |
| 2. | **8.05 Aktiv əmək bazarı siyasəti** | 36-cı yer, 56,6 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda "Sizin ölkənizdə həyata keçirilən əmək bazarı siyasəti işsiz vətəndaşlara yeni bacarıqlara sahib olub yeni iş yerlərinin tapılmasında (habelə əldə olunan bacarıqların iş yerlərinin tələblərinə uyğunlaşdırılmasında, | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Beynəlxalq təcrübə əsasında peşə və kvalifikasiya standartlarının metodologiyasının və onların hazırlanması prosedurunun təkmilləşdirilməsi; | 30.06.2022 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi | Anar Kərimov |
| | | | | **2.** Əmək bazarında daha çox ehtiyac duyulan peşələr üzrə yeni peşə və kvalifikasiya standartlarının hazırlanması; | İl ərzində | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | ixtisaslarının artırılmasında) nə dərəcədə kömək edir?” sualına cavab [1- ümumiyyətlə kömək etmir; 7- əsas etibarilə kömək edir]. | **3.** İxtisaslı işçi qüvvəsinin formalaşdırılması məqsədilə hazırlanmış və “Peşə və Kvalifikasiya Standartlarının Reyestri”nə daxil edilmiş peşə və kvalifikasiya standartlarının istifadəsinin təşviq olunması və genişləndirilməsi ilə əlaqədar zəruri tədbirlərin müəyyənləşdirilərək həyata keçirilməsi; | 30.11.2022 | | |
| | | | | **4.** Adambaşına maliyyələşdirmə mexanizminin tətbiqinin və peşə hazırlığının əhatə dairəsinin genişləndirilməsi; | İl ərzində | | |
| | | | | **5.** Sosial müəssisələrin və əlavə iş yerləri yaradan işəgötürənlərin stimullaşdırılması ilə bağlı təkliflərin hazırlanması və tətbiqi; | 30.06.2022 (təkliflərin hazırlanması)<br>30.11.2022 (təkliflərin tətbiqi) | | |
| | | | | **6.** Məşğulluq xidmətinin avtomatlaşdırılması, məşğul şəxslərin reyestrinin yaradılması. | 31.07.2022 | | |
| 3. | **8.06 İşçilərin hüquqları** | m/y<br>71,5 bal | Bu göstərici beynəlxalq səviyyədə tanınan əsas əmək standartlarının qorunma səviyyəsini ölçən “ITUC Global Rights Index” hesabatına əsaslanır. Göstəricinin miqyası 0 (qorunma yoxdur) ilə 100 (yüksək qorunma) arasında dəyişir. Əməyin mühafizə ölçülərinə vətəndaş hüquqları, kollektiv sövdələşmə hüququ, tətil hüququ, sərbəst birləşmək hüququ və digər mövcud hüquqlardan istifadə imkanı daxildir. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Qeyri-formal məşğulluqla bağlı mübarizə tədbirlərinin genişləndirilməsi, o cümlədən tikinti sahəsində qeyri-rəsmi məşğulluğun qarşısının alınması mexanizminin təkmilləşdirilməsi məqsədilə müvafiq qanunvericilik aktlarında dəyişikliklərə dair layihələrin hazırlanması və aidiyyəti üzrə təqdim olunması; | 30.11.2022 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi | Anar Kərimov |
| | | | | **2.** İşçi hüquqlarının qorunması istiqamətində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və bu sahədə fəaliyyət göstərən QHT-lərlə əməkdaşlığın genişləndirilməsi; | İl ərzində | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Anar Kərimov |
| | | | | **3.** “ITUC Global Rights Index” hesabatına Azərbaycanın daxil edilməsi məqsədilə aidiyyəti beynəlxalq təşkilatla (“The International Trade Union Confederation”) daha sıx əməkdaşlıq əlaqələrinin yaradılması və bu hesabat üzrə ölkəmizin yüksək səviyyədə təmsil olunması üçün zəruri tədbirlərin görülməsi; | 31.07.2022 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi (o cümlədən Dövlət Vergi Xidməti), Maliyyə Nazirliyi | Anar Kərimov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | **4.** Əmək münasibətlərinin rəsmiləşdirilməsi və əməkhaqlarının ağardılması istiqamətində tədbirlərin görülməsi. | Mütəmadi | İqtisadiyyat Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Nigar Vahabzadə |
| 4. | **8.08 Daxili əmək bazarının çevikliyi** | 58-ci yer, 60,8 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda “Sizin ölkənizdə insanların sahib olduqları peşələrinə uyğun iş yeri tapması məqsədilə ölkənin digər regionlarına köçməsi vəziyyəti necədir?” sualına cavab [1- ümumiyyətlə köçmürlər; 7- çox miqyasda köçürlər]. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Özünüməşğulluq, peşə təhsili və digər layihələrdə regionların prioritet istiqamət kimi seçilməsi; | Mütəmadi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, Ədliyyə Nazirliyi | Anar Kərimov |
| | | | | **2.** Məsafədən işləməyin hüquqi əsaslarının yaradılması ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi; | 30.11.2022 | | |
| | | | | **3.** Ezamiyyə məsələlərinin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması və aidiyyəti üzrə təqdim edilməsi; | 30.06.2022 | | |
| | | | | **4.** İşğaldan azad olmuş ərazilərə müasir bilik və bacarıqlara malik mütəxəssislərin cəlb edilməsi məqsədilə qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması. | | | |
| 5. | **8.09 Peşəkar menecmentə olan etimad** | 38-ci yer, 63,9 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda “Sizin ölkənizdə şirkətlərdə rəhbər vəzifələri kimlər tutur?” sualına cavab [1- adətən uyğun olmasından asılı olmayaraq qohumlar və dostlar; 7- əsas etibarilə peşəsi və sahib olduğu ixtisas təsnifatı (bacarıqları) əsasında seçilmiş peşəkar menecerlər]. | Peşə hazırlığı çərçivəsində bir sıra istiqamətlərdə beynəlxalq standart və tələblərə uyğun mütəxəssislərin hazırlanması üzrə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrup tərəfindən onlara zəruri dəstəyin göstərilməsi. | İl ərzində | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi | Anar Kərimov |
| 6. | **8.10 Ödəniş və məhsuldarlıq** | 9-cu yer, 67,4 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda “Sizin ölkədə əməyin ödənilməsi sistemi nə dərəcədə əməyin məhsuldarlığı ilə əlaqəlidir?” sualına cavab [1-ümumiyyətlə əlaqəli deyil; 7- yüksək səviyyədə əlaqə var]. | Dövlət qulluqçularının aylıq məvacibinin (o cümlədən mükafatlandırılmasının) peşəkarlıq səviyyəsindən və xidməti fəaliyyətinin qiymətləndirilməsindən asılı olaraq müəyyən edilməsi və əmək məhsuldarlığının yüksəldilməsi məqsədilə normativ hüquqi aktların təkmilləşdirilməsi istiqamətində aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi. | 31.07.2022 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ədliyyə Nazirliyi | Anar Kərimov |

<table>
<tr><td rowspan="4">7.</td><td rowspan="4">8.11 İşçi qüvvəsində qadınların iştirak səviyyəsi</td><td rowspan="4">74-cü yer, 62,6 bal</td><td rowspan="4">Bu göstərici işçi qüvvəsinin tərkibində 15-64 yaşında olan muzdlu işçi və qulluqçu qadınların payının (%-lə) 15-64 yaşında olan muzdlu işçi və qulluqçu kişilərin payına (%-lə) nisbətini əks etdirir. Muzdlu işçi və qulluqçu dedikdə, əmək haqqı ödənilən iş yerlərində çalışan insanlar nəzərdə tutulur.</td><td colspan="4">Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:</td></tr>
<tr><td>1. Qadınların məşğulluq imkanlarının genişləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklərin edilməsinə dair qanunvericilik layihələrinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi;</td><td>31.07.2022</td><td rowspan="3">Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>Ədliyyə Nazirliyi</td><td rowspan="3">Anar Kərimov</td></tr>
<tr><td>2. Qadınların iqtisadiyyatın yüksək əməkhaqqı mövcud olan sahələrinə təşviq edilməsi məqsədilə peşəyönümünə və peşə hazırlığına cəlb edilməsi;</td><td>İl ərzində</td></tr>
<tr><td>3. Məşğul əhalinin tərkibində qadınların payını artırmaq məqsədilə qadınların məşğulluğunun təmini üçün layihələrin həyata keçirilməsi.</td><td>30.11.2022</td></tr>
<tr><td colspan="8">İqtisadi Azadlıq İndeksi</td></tr>
<tr><td rowspan="4">8.</td><td rowspan="4">3.2. Əməyin azadlığı</td><td rowspan="4">97-ci yer, 55,9 bal</td><td rowspan="4">Əməyin azadlığı komponenti ölkənin əmək bazarının normativ-hüquqi bazasının müxtəlif aspektləri üzrə kəmiyyət ölçüsüdür. Buraya minimum əmək haqqı, ixtisarlar, işdən azad etməni məhdudlaşdıran qanunlar və işdən çıxarma tələbləri, işə qəbul və iş saatları ilə əlaqədar ölçülə bilən normativ məhdudiyyətlər, eləcə də işçi qüvvəsində iştirak səviyyəsi (əmək bazarında məşğulluq imkanlarının göstəricisi kimi) daxildir.Əməyin azadlığı komponenti bərabər çəkiyə malik (ümumi qiymətin 1/7 hissəsi) aşağıdakı 7 kəmiyyət alt-faktoru əsasında hesablanır:</td><td colspan="4">Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:</td></tr>
<tr><td>1. Xalis minimum əməkhaqqının xalis orta əməkhaqqına olan nisbətinin artırılması üzrə müvafiq tədbirlərin görülməsi;</td><td>30.06.2022</td><td rowspan="2">Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>Ədliyyə Nazirliyi</td><td rowspan="2">Anar Kərimov</td></tr>
<tr><td>2. Sosial müdafiəyə xüsusi ehtiyacı olan və iş tapmaqda çətinlik çəkən şəxslərin əmək bazarına inteqrasiyasının genişləndirilməsi üzrə tədbirlərin görülməsi;</td><td>30.09.2022</td></tr>
<tr><td>3. İnklüziv məşğulluğun inkişaf etdirilməsi ilə bağlı təkliflərin hazırlanması və tətbiqi.</td><td>30.06.2022<br>(təkliflərin hazırlanması)<br>30.11.2022<br>(təkliflərin tətbiqi)</td><td>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>Ədliyyə Nazirliyi</td><td>Anar Kərimov</td></tr>
</table>

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | 1. Minimum aylıq əmək haqqının orta aylıq əmək haqqına nisbəti;<br>2. Əlavə işçilərin işə götürülməsinə maneə;<br>3. İş saatlarının sabitliyi (non-flexibility);<br>4. Artıq işçilərin işdən çıxarılmasının çətinliyi;<br>5. Qanunla tələb olunan xəbərdarlıq müddəti;<br>6. İcbari işdənçıxarma müavinəti;<br>7. Əmək qabiliyyətli əhalinin sayının ümumi əhalinin sayına nisbəti. | **4.** Mədəniyyət müəssisələrinə və ictimai obyektlərə əlilliyi olan şəxslərin daha rahat daxil olması və istifadəsinə şəraitin və zəruri infrastrukturun yaradılması məqsədilə müvafiq avadanlıqların quraşdırılması istiqamətində aidiyyəti qurumlarla birlikdə zəruri tədbirlərin görülməsi. | İl ərzində | Mədəniyyət Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər aidiyyəti qurumlar | İlkin Nəsibov |
| ***Qlobal İnnovasiyalar İndeksi*** | | | | | | | |
| 9. | **5.1.1 Biliyə əsaslanan məşğulluq** | 67-ci yer, 23,1 bal | Bu göstərici elmtutumlu xidmətlərdə məşğulluğun işçi qüvvəsinə nisbəti ilə ölçülür (%-lə). Peşələrin Təsnifatı üzrə Beynəlxalq Standartlara müvafiq olaraq 1-3-cü kateqoriyalardakı insanların ümumi sayının bütün məşğul əhalinin sayında faizlə olan hissəsidir.<br>ISCO-08-ə daxil edilən kateqoriyalar aşağıdakılardır:<br>1) menecerlər;<br>2) mütəxəssislər;<br>3) texniki və köməkçi mütəxəssislər.<br>ISCO-08 məlumatlarının olmadığı yerlərdə ISCO-88 məlumatlarından istifadə edilmişdir. ISCO-88-ə daxil olan kateqoriyalar aşağıdakılardır:<br>1) hüquqşünaslar, yüksək vəzifəli şəxslər və menecerlər; | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Texniki, həyat haqqında, hüquq, ictimai elmlər sahəsində məşğul olacaq peşəkar mütəxəssislərə əmək bazarında olan tələbatın proqnozlaşdırılması; | 30.06.2022 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi | Anar Kərimov |
| | | | | **2.** Əmək bazarında ən çox tələb olunan ixtisaslara əsasən ali təhsil müəssisələrinə tələbə qəbulu planının hazırlanması; | 30.06.2022 | Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ceyhun Kərəmov |
| | | | | **3.** Əmək bazarının tələblərinə cavab verən kadrların hazırlanması məqsədilə çevik alətlərin tətbiqi (qısamüddətli kursların təşkili, dual təhsil proqramlarının icrası və s.). | 30.09.2022 | Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ceyhun Kərəmov |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | 2) mütəxəssislər;<br>3) texniki və köməkçi mütəxəssislər. | | | | |
| ***Qlobal İmkanlar İndeksi*** | | | | | | | |
| 10. | **1.3. İşçi qüvvəsinin keyfiyyəti – məhsuldarlıq** | 71-ci yer | İqtisadi əsaslar indikatoru ölkənin makro-performansı, işçi qüvvəsinin keyfiyyəti və məhsuldarlıq, ticarət və müasir infrastruktur sub-indikatorlarına bölünməklə 5 istiqamət üzrə inkişafı qiymətləndirir.İşçi qüvvəsinin keyfiyyəti aşağıdakı komponentlərdən təşkil olunur:<br>- İşçi qüvvəsinin istedadı;<br>- İşçi qüvvəsində iştirak səviyyəsi 15+ yaş;<br>- Orta təhsilli işçi qüvvəsi;<br>- Qadınların işçi qüvvəsində iştirak səviyyəsi;<br>- 25+ yaşda olan əhali üçün bütün təhsil səviyyələri üzrə ümumi təhsil illərinin orta sayı;<br>- İbtidai təhsildə müəllim-şagird nisbəti;<br>- Məktəb təhsilinin müddəti;<br>- Özünüməşğul şəxslərin işçi qüvvəsində payı;<br>- Kadr hazırlığının həcmi. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Özünüməşğulluq proqramına cəlb olunan şəxslərin sayının optimallaşdırılması; | Mütəmadi | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>Təhsil Nazirliyi | Anar Kərimov |
| | | | | **2.** Peşə, orta ixtisas, ali və əlavə təhsilin əlçatanlığının təmin olunması; | Mütəmadi | Təhsil Nazirliyi | Ceyhun Kərəmov |
| | | | | **3.** İş yerində öyrənmənin təmin edilməsi üçün tədbirlərin həyata keçirilməsi, o cümlədən iş yerində təhsilin davam etdirilməsi məqsədilə fasiləsiz peşə təhsili sisteminin yaradılması çərçivəsində Alman-Azərbaycan Xarici Ticarət Palatasının təşəbbüsü ilə irəli sürülmüş 3D “Azərbaycanda məşğulluğun inkişafına rəqəmsallaşma, müxtəliflik və dual təhsil vasitəsilə dəstək” layihəsinin tətbiqi; | İl ərzində | | |
| | | | | **4.** Əmək bazarında məhsuldarlıq səviyyəsi aşağı olan sahələrin müəyyən edilməsi ilə əlaqədar təhlillərin aparılması; | 30.06.2022 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Anar Kərimov |
| | | | | **5.** Əmək məhsuldarlığı aşağı olan sektorlar üzrə tədris proqramlarının təkmilləşdirilməsi və səriştə əsaslı modul proqramların hazırlanması; | 31.11.2022 | Təhsil Nazirliyi | Ceyhun Kərəmov |
| | | | | **6.** Peşə təhsili müəssisələrinin məzunlarının özünüməşğulluq proqramına cəlb edilməsi; | 31.07.2022 | Təhsil Nazirliyi,<br>Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ceyhun Kərəmov,<br>Anar Kərimov |
| | | | | **7.** Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və Dövlət Məşğulluq Agentliyi ilə birlikdə gənclərin biznes emalatxanası layihəsinə cəlb edilməsi. | 31.07.2022 | Təhsil Nazirliyi,<br>İqtisadiyyat Nazirliyi (Kiçik və Orta Biznesin İnkişafı Agentliyi), Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Ceyhun Kərəmov,<br>Anar Kərimov |

<table>
<tr><th colspan="8">Qadın, Biznes və Hüquq İndeksi (“Women, Business and the Law” hesabatı)</th></tr>
<tr><td rowspan="4">11.</td><td rowspan="4">Əməyin ödənişi</td><td rowspan="4">0 bal</td><td rowspan="4">Bu göstərici aşağıdakı suallar əsasında müəyyən olunur:<br>1. Qanun bərabər dəyərə malik olan işlərə bərabər əməkhaqqı tələb edirmi?<br>2. Qadınların gecə iş rejimində işləmək hüquqları varmı?<br>3. Qadınlar da kişilər kimi təhlükəli sayılan işdə işləyə bilərlərmi?<br>4. Qadınlar sənaye sektorunda işləyə bilərlərmi?</td><td colspan="4">Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:</td></tr>
<tr><td>1. Eyni dəyərə malik müxtəlif iş yerlərində əmək ödənişi sistemində bərabərliyin təmin edilməsi məqsədilə “Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında” Azərbaycan Respublikasının Qanununa dəyişikliklərin edilməsinə dair qanunvericilik layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi;</td><td rowspan="3">30.06.2022</td><td rowspan="3">Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>İqtisadiyyat Nazirliyi,<br>Ədliyyə Nazirliyi</td><td rowspan="3">Anar Kərimov</td></tr>
<tr><td>2. Gecə vaxtı görülən işlərə hamilə və üç yaşınadək uşağı olan qadınların öz arzuları ilə cəlb edilə bilməsi ilə bağlı müddəaların Azərbaycan Respublikasının Əmək Məcəlləsinə əlavə edilməsi üçün müvafiq tədbirlərin görülməsi;</td></tr>
<tr><td>3. Qadın əməyinin tətbiqinin qadağan olunduğu iş yerləri ilə bağlı Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklərin edilməsinə dair qanunvericilik layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi.</td></tr>
<tr><td rowspan="3">12.</td><td rowspan="3">Valideynlik</td><td rowspan="3">80 bal</td><td rowspan="3">Bu göstərici aşağıdakı suallar əsasında müəyyən olunur:<br>1. Hamilə qadınlara ən azı 14 həftə müddətində ödənişli məzuniyyət verilirmi?<br>2. Dövlət hamiləliyə görə müavinətlərin tam hissəsini ödəyirmi?<br>3. Atalar üçün valideynlik məzuniyyəti mövcuddurmu?<br>4. Ödənişli sosial məzuniyyət hüququ mövcuddurmu?<br>5. Hamilə işçilərin əmək müqaviləsini ləğv etmək qadağandırmı?</td><td colspan="4">Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:</td></tr>
<tr><td>1. Uşağın anadan olmasına görə kişilərə doğuş gününə təsadüf edən ərəfədə ödənişli məzuniyyət verilməsi ilə bağlı Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyişikliklərin edilməsinə dair qanunvericilik layihəsinin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi;</td><td rowspan="2">30.11.2022</td><td rowspan="2">Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi,<br>Ədliyyə Nazirliyi</td><td rowspan="2">Anar Kərimov</td></tr>
<tr><td>2. Atalar üçün valideynlik məzuniyyətinin müddəalarının Azərbaycan Respublikasının Əmək Məcəlləsinə daxil edilməsi ilə bağlı təkliflərin hazırlanaraq aidiyyəti üzrə təqdim edilməsi.</td></tr>
</table>

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| ***Qlobal İstedad Rəqabətliliyi İndeksi*** | | | | | | | |
| 13. | **5.2.1 İxtisaslı işçinin tapılması imkanı** | 29-cu yer, 76,33 bal | Dünya İqtisadi Forumu tərəfindən həyata keçirilən sorğuda “Sizin ölkənizdə şirkətlər nə dərəcədə vakansiyalara tələb olunan bacarıqlara malik insanları tapa bilirlər?” sualına cavab [1 = ümumiyyətlə yox; 7 = böyük ölçüdə]. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Vakansiyalara tələb olunan bacarıqlara malik işçilərin tapılması məsələsinin post-COVID dövründə getdikcə aktuallaşacağını nəzərə alaraq, peşə təhsilinə cəlb olunan vətəndaşların sayının artırılması; | İl ərzində | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Təhsil Nazirliyi | Anar Kərimov |
| | | | | **2.** Karyera məsləhətlərinin artırılması və aktivləşdirilməsi, vətəndaş qəbulunda yeni yanaşmanın tətbiqinin həyata keçirilməsi; | İl ərzində | | |
| | | | | **3.** Ali, orta ixtisas və peşə təhsili proqramlarının hazırlanmasına işəgötürənlərin cəlb olunmasının təmin edilməsi; | İl ərzində | Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi | Ceyhun Kərəmov |
| | | | | **4.** Ölkə üzrə təhsil müəssisələrində Karyera Mərkəzlərinin fəaliyyətinin təşkil edilməsi. | İl ərzində | | |
| 14. | **6.1.1. Orta ixtisas və ali təhsilli işçi qüvvəsi** | 55-ci yer, 32,38 bal | Orta ixtisas və ali təhsilli işçi qüvvəsinin faizi | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Bu indikator üzrə Azərbaycana dair statistik məlumatların araşdırılması və nəticələrindən asılı olaraq zəruri tədbirlərin görülməsi; | 31.07.2022 | Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi | Ceyhun Kərəmov |
| | | | | **2.** Orta ixtisas və ali təhsilə əlçatanlığının təmin edilməsi. | Mütəmadi | | |
| ***Qlobal Rifah İndeksi*** | | | | | | | |
| 15. | **8.5 İşçi qüvvəsinin tərtibatı** | 111-ci yer, 49,1 bal | Bu göstərici işsizlik və gender nisbətləri daxil olmaqla demoqrafiya ilə işçi qüvvəsinin kəsişməsini əhatə edir. | **Aşağıdakı istiqamətlərdə aidiyyəti qurumlar tərəfindən müvafiq işlərin görülməsi və bu sahədə işçi qrupu tərəfindən onlara zəruri dəstəyin göstərilməsi:** | | | |
| | | | | **1.** Əmək bazarına təzyiqlər, onun ölçülməsi meyarlarının və həcminin müəyyən edilməsi; | 30.06.2022 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, (o cümlədən Dövlət Vergi Xidməti), Təhsil Nazirliyi, Dövlət Statistika Komitəsi | Anar Kərimov |
| | | | | **2.** Əmək bazarı sahəsində onlayn müfəttiş layihəsinin təsdiq və tətbiq edilməsi. | | | |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| ***Əlverişli Biznes Mühiti (Business Enabling Environment)*** | | | | | | | |
| 16. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Dünya Bankı Qrupunun yeni “Əlverişli biznes mühiti (Business Enabling Environment)” layihəsinin aidiyyəti komponentləri əsasında ilkin qiymətləndirmə, təhlil və diaqnostikanın aparılması və mümkün ən qısa müddətdə həm qanunvericilik, həm də inzibatçılıq sahəsində təkmilləşmələrin, habelə kommunikasiya tədbirlərinin həyata keçirilməsi, müvafiq sahələrdə elektron xidmətlərin tətbiqi və ya daha da təkmilləşdirilməsi və görülmüş işlər barədə Komissiyaya məlumat verilməsi. | 31.07.2022 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi | Anar Kərimov, Nigar Vahabzadə, Ceyhun Kərəmov |
| ***Yerli və beynəlxalq qurumlarla əməkdaşlığın gücləndirilməsi*** | | | | | | | |
| 17. | **Bütün aidiyyəti indikatorlar** | - | - | Beynəlxalq reytinqlər üzrə sorğularda iştirak edən şirkətlərlə (rezident və qeyri-rezident) müvafiq sahədə mütəmadi əməkdaşlığın təmin olunması. | Mütəmadi | Bütün aidiyyəti qurumlar | İşçi qrupun bütün üzvləri |
| 18. | **Bütün aidiyyəti indikatorlar** | - | - | **1.** Hesabatı hazırlayan ekspert və ya qiymətləndirmə qrupu ilə əməkdaşlığın genişləndirilməsi və ölkədəki faktiki göstərici və ya qanunvericilik tələbi barədə məlumatların Komissiyanın Katibliyi ilə razılaşdırılmaqla onlara çatdırılması.<br>**2.** Beynəlxalq təşkilatlarla, xüsusilə Beynəlxalq Əmək Təşkilatı ilə əməkdaşlığın təkmilləşdirilməsi, əmək bazarı sahəsində inkişaf etmiş ölkələrlə əməkdaşlıq əlaqələrinin yaradılması, informasiya mübadiləsinin aparılması, onların məşğulluq sahəsində olan uğurlu təcrübələrinin öyrənilməsi və ölkəmizdə tətbiq edilməsi. | İl ərzində | Bütün aidiyyəti qurumlar | İşçi qrupun bütün üzvləri |